# Ədliyyə naziri Özbəkistanda keçirilən IV Beynəlxalq hüquq forumunda hüquqi təhsil və onun inkişafında İKT-nin rolundan danışıb

Ədliyyə naziri Fərid Əhmədov Özbəkistanın paytaxtı Daşkənddə keçirilən "Daşkənd hüquq baharı" adlı IV Beynəlxalq hüquq forumunda iştirak edir.



Ədliyyə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Fərid Əhmədov forumun əsas plenar



iclasında hüquqi təhsil və onun inkişafında informasiya və kommunikasiya texnologiyalarının rolu barədə çıxış edib. Bu sahədə müasir çağırışlar və yeni trendlərlə bağlı danışan nazir, Ədliyyə Nazirliyi tərəfindən hüquqi təhsil sahəsinin inkişafı və hüquq sisteminin müasirləşdirilməsi baxımından əhəmiyyətli addımlar atıldığını vurğulayıb.

Forumda elektron hökumət və dövlət xidmətlərinin rəqəmsallaşdırılması, ədliyyə sahəsində süni intellektin tətbiqi, rəqəmsal notariat, məhkəmə ekspertizası sahəsində texnoloji yeniliklər, hüquqi təhsil və digər aktual mövzuların müzakirəsi həyata keçirilir.

Bu gün də davam edəcək foruma yüksəksəviyyəli hökumət rəsmiləri, beynəlxalq təşkilatların nümayəndələri, dünyanın aparıcı ekspertləri və elm xadimləri daxil olmaqla, 30 dövlətdən 600-dən çox nümayəndə qatılıb.

Səfər çərçivəsində Fərid Əhmədovun Özbəkistanın ədliyyə naziri və digər rəsmi şəxslərlə görüşlərinin keçirilməsi, əməkdaşlıq perspektivlərinin müzakirəsi planlaşdırılır.

Azərbaycan. - 2025.- 30 may (№111).- S.11.